**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ERMƏNİSTAN RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİ (1918-1920-Cİ İLLƏR)

İxtisas: **5507.01-Beynəlxalq münasibətlər tarixi**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Sənubər İslam qızı Cabbarova**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin İctimai fənlər kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix elmləri doktoru, professor
**Anar Camal oğlu İsgəndərov**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, profes sor
**İsmayıl Muxtar oğlu Hacıyev**

tarix elmləri doktoru, dosent
**Fərhad Rafiq oğlu Cabbarov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Rövşən Qabil oğlu Hətəmov**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının Elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**İsmayıl Məhərrəm oğlu Musa**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin əvvəllərində Azərbaycanın müstəqil bir dövlət kimi mövcud olması üçün əlverişli şərait yaranmışdır. Belə ki, Birinci Dünya müharibəsinin təsiri altında Rusiya İmperiyasının dağılması Azərbaycan xalqının tarixi taleyində mühüm rol oynamışdır.

Azərbaycan xalqı 1918-1920-ci illərdə, cəmi 23 ay müddətində bu çətin və keşməkeşli tarixi müstəqilliyə nail oldu, Rus İmperiyasının əsarətindən çıxaraq müstəqillik yolunda ilk addımlarını atmağa başladı. AXC hökuməti dövlətimizin ərazi bütövlüyünün qorunmasında xüsusi rol oynamış, Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağa qarşı irəli sürülən erməni təxribatlarına mətanətlə və layiqincə sinə gəlmiş, oyuncaq Muğan Respublikasını aradan qaldırmaqla sülhə və dincliyə nail olmuşdur.

"İstiqlal Bəyannaməsi"ndə öz əksini tapmış qonşu ölkələrlə mehriban qonşuluq münasibətlərinin bərqərar olması prinsipi bütün qonşu dövlətlərə olduğu kimi Ermənistan Respublikasına da şamil edilirdi. Lakin Ermənistan Respublikası yarandığı ilk gündən Azərbaycanın tarixi torpaqlarına dair iddialar irəli sürməkdən çəkinmir, hər fürsətdə bu bədxah niyyətini reallaşdırmağa çalışırdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin ən çox vəhşiliklər törətdiyi yerlərdən biri də Qarabağ bölgəsi olmuşdur. Ermənilər bu əraziyə çoxdan göz dikmişdilər və buranı "Kiçik Ermənistan" adlandırırdılar. Bu gün də ermənilər Qarabağın Ermənistanın tarixi ərazisi olduğunu əsassız dəlillərlə dünyaya sübut etməyə çalışırlar. Lakin tarixi həqiqət danılmazdır - Qarabağ əzəli Azərbaycan torpağıdır. 44 günlük Vətən müharibəsiylə ordumuz bu reallığı bir daha dünyaya sübut etdi.

1991-ci il oktyabrın 18-də özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi bəyan edən müasir Azərbaycan Respublikası dövlət müstəqilliyinə qovuşdu. Bundan sonra milli tarix elminin inkişafı üçün münbit şərait yarandı, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin tədqiqinə diqqət daha da artırıldı. Erməni ideoloqlarının türklərə və azərbaycanlılara qarşı apardığı düşmənçilik siyasətinin ətraflı şəkildə tədqiqi və öyrənilməsi üçün əlverişli imkan

yarandı. XX əsrdə azərbaycanlılara qarşı törədilən soyqırımların və deportasiyaların doğru, dürüst şəkildə araşdırılması məsələsi aktuallıq kəsb etməyə başladı. Ümummilli Lider H. Əliyevin 1998-ci il 30 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanında bununla bağlı qeyd olunur: *"Azərbaycanın XIX—XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə-1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir"*[1].

Xalqımızın illərlə düçar olduğu və bu gün də mütərəqqi zəfərimizə baxmayaraq, həll prosesinin ermənilər tərəfindən qəsdən uzadılmağa çalışıldığı Ermənistan-Azərbaycan münaqişəsinin əsl səbəblərinin araşdırılması və üzə çıxarılması, erməni təcavüzkarlığının tarixi köklərinin ifşa edilməsi, onların Qafqazın aborigen əhalisi olmaması və bu ərazilərə XIX əsrin əvvəllərində müstəmləkəçi Çar Rusiyası tərəfindən köçürülməsinin aşkara çıxarılması müasir dövrdə böyük əhəmiyyət və aktuallıq kəsb edir. Azərbaycan Xalq Cümhuriyyətinə həsr edilmiş bir sıra əsərlər Ermənistan-Azərbaycan münaqişəsinin tarixi köklərinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Hazırda bu problemin tarixi köklərinin araşdırılması Azərbaycan xalqı üçün həm siyasi-ideoloji, həm də elmi əhəmiyyət kəsb edir.

Azərbaycanın milli tarixinin təhriflərdən, yalanlardan təmizlənərək yenidən obyektivliklə yazılması, yaxın keçmişimizdə baş vermiş hadisələrin düzgün şərh edilməsi və onlardan zəruri ibrət dərslərinin götürülməsi üçün bu hadisələr ilk növbədə qərəzsiz, obyektiv elmi təhlildən keçirilməli, onlara əvvəlcə elmi, daha sonra isə hüquqi və siyasi qiymət verilməlidir.

---

[1] "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı// 28 mart 1998-ci ildə imzalamışdır.-Bakı: Azərbaycan, -1998, 28 mart, -s.3

Bu gün Azərbaycan tarixinin ən mürəkkəb və ziddiyyətli problemlərindən biri olan Azərbaycan Xalq Cümhuriyyəti – Ermənistan Respublikası münasibətlərinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Ermənilərin tarixən Azərbaycan xalqına, onun qədim və zəngin mədəniyyətinə qarşı təcavüzünün mahiyyətinin açılması, AXC dövründə ermənilər tərəfindən türk-müsəlman əhalisinə qarşı törədilən cinayətlərin tarixi və siyasi cəhətdən araşdırılmasının zəruriliyi tədqiq olunan mövzunun aktuallığını təşkil edir. Həmçinin böyük dövlətlərin uzun illər davam edən Ermənistan-Azərbaycan münaqişəsinə ikili standartlarla yanaşması məsələni həm elmi, həm də siyasi baxımdan aktuallaşdırır.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək vurğulamaq olar ki, AXC-Ermənistan əlaqələrinin araşdırılması bugünkü Azərbaycan-Ermənistan münasibətlərinin tarixi köklərinin öyrənilməsi, məsələnin hüquqi-siyasi qiymətləndirilməsi baxımından xüsusi aktuallıq kəsb edir. AXC-Ermənistan münasibətləri ilə bağlı tarixi həqiqətin bərpa edilməsi müstəqil Azərbaycan üçün mühüm əhəmiyyət daşıyır.

Bu tarixi münasibətlərin araşdırılmasının əhəmiyyətindən irəli gələn aktuallığı aşağıdakı tezislərlə konkretləşdirmək mümkündür:

- XX əsrin əvvələrində Cənubi Qafqaz regionunun geosiyasi mənzərəsinin nəzərdən keçirilməsi;
- Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət strategiyasının regional və beynəlxalq əməkdaşlıq çərçivəsində dəyərləndirilməsi;
- Azərbaycan-Ermənistan münasibətlərinin tarixi köklərinin, ermənilərin Azərbaycan torpaqlarına köçürülmə siyasətinin mahiyyətinin araşdırılması;
- Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərinin kəskinləşməsinin səbəblərinin, erməni separatizminin mahiyyətinin araşdırılması;
- Aparıcı Qərb dövlətlərinin XX və XXI əsrlərdə Azərbaycan - Ermənistan münasibətlərinə yanaşmasının müqayisəli nəzərdən keçirilməsi;
- Region dövlətlərinin XX və XXI əsrlərdə Azərbaycan - Ermənistan münasibətlərinə yanaşmasının müqayisəli nəzərdən keçirilməsi.

Mövzunun aktuallığı həm də onun **işlənmə dərəcəsi** ilə isbat olunur. Tədqiqat işi yazılarkən geniş ədəbiyyatdan istifadə edilmişdir: Azərbaycanda və xarici ölkələrdə çap edilmiş kitab, qəzet, məqalə və digər tədqiqat işləri dissertasiya işinə cəlb edilmiş, təhlil olunmuşdur.

AXC-Ermənistan münasibətləri ayrıca tədqiqat obyekti olmamış, bu günə qədər kompleks şəkildə araşdırılmamışdır. Ancaq Azərbaycan, Rusiya, Gürcüstan, Türkiyə, Ermənistan və Qərb tədqiqatçıları öz əsərlərində araşdırdığımız problemin ayrı-ayrı məqamlarına geniş yer vermişlər. Ona görə də dissertasiyanın yazılması prosesində həmin əsərlərdən istifadə edilmiş və eləcə də bəzi mühüm məsələlərə aydınlıq gətirmək üçün onlara müraciət olunmuşdur.

Bütövlükdə araşdırma ilə bağlı istifadə olunmuş qaynaq və əsərləri xarakterinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

**1) 1918-ci ilə qədər ermənilərin qonşu dövlətlərə qarşı fəaliyyəti barədə yazılanlar.** Burada İ.Şopenin[2], N.Şavrovun[3], N.Qlinkanın[4] və s. mənbələri qeyd etmək olar. Həmin əsərlərdə ermənilərin Azərbaycan torpaqlarına ruslar tərəfindən köçürülməsi faktlarla göstərilir. Bu mənbələrə istinad etməklə Çar Rusiyasının şimali Azərbaycanda yeritdiyi müstəmləkə siyasəti və bu siyasətə uyğun olaraq ermənilərin bu əraziyə köçürülməsinin əsl mahiyyətini açıb göstərmək mümkündür.

**2) 1918-1920-ci illərdə yazılanlar.** Bu dövrün nəşrlərindən 1918-1920-ci illər ərzində işıq üzü görən "Azərbaycan"[5], İrəvanda nəşr olunan "Zəng"[6] qəzetlərini qeyd etmək lazımdır. Regionda baş

---

[2] Шопен, И. И. Исторический памятник состояния Армянской области в эпоху присоединения её к Российской империи/И.Шопен. – Москва: Типография Императорской Академии Наук, –1852. –639 с.

[3] Шавров, Н.Н. Новая угроза русскому делу в Закавказье : предстоящая распродажа Мугани инородцам./ Н. Шавров. – Санкт-Петербург: Рус. собрание, – 1911. –156 с.

[4] Глинка, Н.С., Описания переселения армян Азербайджанских в пределы России/Н.С. Глинка. –Москва: Типография Лазаревых Института Восточных Языков, –1831. –142 с.

[5] "Azərbaycan" qəzeti/ Bakı, –1919, 3 iyul, –№7. – s.3

[6] Газета "Занг"/ Ереван, –1918, 8 декабря. –s.3.

verən bütün siyasi hadisələr sözü gedən qəzetlərdə öz əksini tapırdı. Həmçinin bu dövrə aid mənbələr siyahısında ermənilərin Tiflisdə nəşr etdiyi "The Transcaucasian Post"[7] qəzetini də qeyd etmək lazımdır. Bu qəzet vasitəsilə ermənilər çalışırdılar ki, ingilis oxucusunu ermənilərin "tarixi və mədəniyyəti" ilə tanış etsinlər. N.Adons 1920-ci ildə nəşr etdiyi "Erməni məsələsinin həlli istiqamətində"[8] yazısında ermənilərin ruslara nə dərəcə bağlı olduğunu sübuta yetirir. Rusların ermənilərə hava və su qədər lazım olduğunu göstərir. Bu dövrün nəşrlərindən biri də Ü.Hacıbəylinin "Andranik məsələsi"[9] adlı məqaləsidir, hansı ki, bu yazıda müəllif Andranikin erməni hökumətinin məxfi məmuru olduğunu qeyd edir.

Bu dövrə aid olan digər bir əsər Y.Çəmənzəminlinin "Xarici siyasətimiz" [10] əsəridir ki, müəllif burada ermənilərin illərdir xristian faktorundan istifadə edərək Qərb dövlətlərindən kömək gözləməsindən bəhs edir.

Dissertasiya işində həmçinin Q.Çalxuşyanın[11], P.Karibinin[12], E.Lyudendorfun[13], O.Kaçaznuninin[14] tədqiqatlarından da geniş istifadə olunmuşdur. Bundan başqa XX əsrin əvvəllərində erməni ekspansiyasını və erməni terrorunu, habelə çarizmin ermənipərəst və anti-azərbaycan siyasətini yaxından müşahidə etmiş bir sıra imperiya

---

[7] Magdasyan, A. Armenia: Its Culture and Expectations //The Trans-Caucasian Post.- February 21, 1919, No. 1

[8] Adonz, N. Towards The Solution of the Armenian Question/ N.Adonz. – London: –1920. –95 p.

[9] Hacıbəyli, Ü.Ə. Andranik məsələsi// Azərbaycan. – 1918,15 dekabr. –№ 65

[10] Çəmənzəminli, Y.V. Xarici Siyasətimiz/ Y.Çəmənzəminli. –Bakı: Azərnəşr, –1993. – 51 s.

[11] Чальхушян, Г. Красная книга/Г.Чальхушян. –Ростов-на-Дону, –1919. –34 с.

[12] Кариби, П. Красная книга/П.Кариби,- Тифлис.- 1920. – 215с.

[13] Людендорф, Э. Мои воспоминания о войне 1914-1918 гг./ Э. Людендорф; под редакцией А. Свечина. – Москва : Высший военный редакционный совет : Государственное издательство, – 1923-1924. – 2 т., – 200с.

[14] Качазнуни, О. Дашнакцутюн больше нечего делать!/ О.Качазнуни. –Тифлис: Заккнига, –1927. –с. 92

məmurlarının, hərbi-siyasi xadimlərin xatirə və memuarları, hesabatları da tədqiqatda istifadə olunan mənbələrdəndir.

**3) Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra onun liderlərinin mühacirət dönəmi araşdırmaları.** Burada öncə M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti"[15], "Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi"[16] kimi əsərlərini qeyd etmək lazımdır. Ə.B.Topçubaşovun "İstanbulda diplomatik görüşlər (1918-1919-cu illər)"[17] və digər əsərləri də mövzuyla bağlı dəyərli tədqiqatlar siyahısındadır.

**4) Sovet dövrü tədqiqatları.** Sovet dövrü tarixşünaslığında 1918-1920-ci illərdə ermənilərin Azərbaycan xalqına qarşı apardığı təcavüzkar siyasəti ilə bağlı mövzulara dair rəsmi qadağa olduğundan yalnız bəzi məsələlər səthi və sinfi don geyindirməklə araşdırılmışdır. Bu dövrdə istər Azərbaycan dövlətçilik tarixinə, istərsə də Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ermənistanın Azərbaycana qarşı törətdiyi vəhşiliklərə münasibət birmənalı deyildi. Ümummilli Lider Heydər Əliyev sovet dövründə yazılmış əsərlərlə bağlı demişdir: *"Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsirindən, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz"* [18].

Bu dövrün qismən dissertasiya mövzusuyla əlaqədar olan nəşrləri

---

[15] Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti/ M.Ə.Rəsulzadə. – Bakı: Elm, –1990. – s. 116.

[16] Rəsulzadə, M.Ə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi / M.Ə.Rəsulzadə. – İstanbul: –1923. –26 s.

[17] Дипломатические беседы А. А. Топчибашева в Стамбуле (записи чрезвычайного посланника и полномочного Министра Азербайджанской Республики) 1918-1919гг./Под. ред. Г. Гасанова. – Баку:Ергюн, – 1994. – 160 с.

[18] Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi: [elektron resurs]/31 yanvar, 1997. URL: http://lib.aliyevheritage.org/az/4211308.html

sırasına V.Veliçkonun[19], V.Leninin[20], E.Tokarjevskinin[21], V.Qurko-Kryajinin[22], Q.Qambaşidzenin[23], A.Beryozkinin[24], A.Artunyanın[25], eyni zamanda Z.Avalovun[26], P.Avalovun[27], Y.Şafirin[28], S.Ağayanın[29], B.Boryanın[30] və digərlərinin yazılarını göstərmək olar.

**5) Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra elmi axtarışlar.** Sovet İttifaqının ləğv edilməsi ilə Cümhuriyyətin başladığı şərəfli yolu yenidən davam etdirən Azərbaycanda tariximizin bir çox dövr və mərhələlərinə, insanlarımızın milli şüurunu

---

[19] Величко, В. Л. Кавказ. Русское дело и междуплеменные вопросы/В.Величко, -Баку: Элм, – 1990. – 224 с.

[20] Ленин, В.И. Полное собрание сочинений. Изд. пятое. / В.Ленин. – Москва: – 1976. – 579 с.

[21] Токаржевский, Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане/ Акад. наук Азербайдж. ССР. Ин-т истории. – Баку : Изд-во Акад. наук АзССР, – 1957. – 332 с.

[22] Гурко – Кряжин, В.А. "Армянский вопрос"// Большая Советская Энциклопедия. – 1926. – 12.

[23] Гамбашидзе, Г.О. Из истории политики США в отношении Грузии 1918-1920 гг./Г.Гамбашидзе. –Тбилиси: Издательство ЦК КП Грузии, –1960. –260 с.

[24] Березкин, А.Д. США - активный организатор и участник военной интервенции против Советской России (1918-1920 гг.)/ А.Березкин. –Москва: Книга по требованию. – 1949. –с. 256.

[25] Арутюнян, А. О. Воспоминания/ А. Арутюнян. -Ереван: Армянское государственное издательство, –1956. –136 с.

[26] Авалов, З. Д. Независимость Грузии в международной политике 1918-1921 гг. Воспоминания и очерки/З. Д. Авалов.– Париж: : Imp. de Navarre,– 1924.– 318 с.

[27] Авалов, П. М. В борьбе с большевизмом. Воспоминания генерала-майора кн. П. Авалова, бывшего командующего русско-немецкой западной армией в Прибалтике/ П.М.Авалов.– Глюкштадт; Гамбург: Тип. И. И. Аугустина, – 1925.– 992 с.

[28] Шафир, Я.М. Очерки грузинские жиронды/ Я.М.Шариф. – Москва;Ленингад: Государственное издательство, –1925. –216с.

[29] Агаян, Ц.П. Роль России в исторических судьбах армянского народа: К 150-летию присоединения Восточной Армении к России/Ц.П.Агаян. – Москва: Наука, –1978. –311с.

[30] Борян, Б.А. Армения, международная дипломатия и СССР/Б.А.Борян. –Москва; Ленинград: Государственное издательство, – т.2. –1928.–434 с.

yatırtmaq və tariximizi unutdurmaq üçün gizlədilməsinə çalışmış və haqqında məlumatların əlçatan edilməsinə yol verilməmiş, xüsusilə ermənilərin azərbaycanlılara qarşı törətdiyi qanlı təxribatların öyrənilməsinə maraq əhəmiyyətli dərəcədə artmışdır.

Ümumilikdə Azərbaycan alimləri ilə yanaşı türk, rus, gürcü, ingilis, erməni və digər millətdən olan tədqiqatçılar da Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətləri, türk-müsəlman əhalisinə qarşı törədilən soyqırım faktları, xarici dövlətlərin Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasiblətlərinin kəskinləşməsində rolu ilə əlaqədar bir sıra əsərlər və məqalələr dərc etdirmişlər.

Araşdırılan mövzuyla bağlı A.İsgəndərovun[31], K. Şükürovun[32], İ.Musanın[33], M.Qasımlının[34], C.Həsənlinin[35], İ.Hacıyevin[36],

---

[31] İsgəndərov, A.C. Azərbaycan həqiqətləri: 1917-1920 /A.İsgəndərov. – Bakı: Elm və təhsil, –2012. – 228 s.

[31] İsgəndərov, A.C. Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti//–Bakı: Dövlət idarəçiliyi. –2013. –№ 1 (41). –s.107-113.

[32] Şükürov, K.K. Türkmənçay 1828.Tarixi xronika/ K.K.Şükürov. –Bakı: Çaşıoğlu, – 2006. –130s

[33] Musa, İ.M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917 - aprel 1920-ci illər)/ İ.Musa. –Bakı: Bakı Universiteti, –2011. –312 s.

[33] Musayev, İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)/İ.M.Musayev. – Bakı: M.Ə.Rəsulzadə adına BDU nəşriyyatı, –1998.– 385s.

[33] Musayev, İ.M. Böyük dövlətlər və “erməni məsələsi” (XIX əsr) I hissə, 2-ci nəşri/İ. Musayev. –Bakı: İqtisad Universiteti. – 2003. –238 s.

[34] Qasımlı, M.C. “Erməni Məsələsi”ndən “Erməni soyqırımına”: gerçək tarix axtarışında (1724-1920)/M.Qasımlı. –Bakı: Mütərcim, –2014. – 468 s.

[34] Гасымлы, М. Дж. Анатолия и Южный Кавказ в 1724-1920-ые гг.: в поисках исторической истины/ М. Дж. Гасымлы.– Москва: Инсан, –2014. –529 с.

[35] Həsənli, C.P. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920) /C. P. Həsənov; elmi red. S. Əliyarov; red. M. Əsədova. – Bakı: Azərnəşr, –1993. – 362 s.

[35] Гасанлы, Дж.П. Русская революция и Азербайджан: трудный путь к независимости (1917-1920)/ Дж.Гасанды. –Москва: Флинта, – 2011. –439 с.

[36] Hacıyev, İ.M. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan / İ.M.Hacıyev. – Naxçıvan: “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, –2010. –384 s.

Y.Mahmudovun[37], Ş.Hüseynovun[38], S.Rüstəmova-Tohidinin[39], M.Zülfüqarlının[40], N.Maksvelin[41], V.Abışovun[42], H.Məmmədovanın[43], Z.Səmədzadənin[44], H.Nərimanoğlunun[45], N.Əliyevin[46],

---

[37] Махмудов, Я.М. Геноцид тюрко-мусульманского населения Азербайджана в 1918-1920-ых годах/Я.М.Махмудов.– Баку: ИПО Турхан , –2015.– 100 с.

[38] Hüseynov, Ş.A. Mətbu irsimizdən səhifələr/ Ş.Hüseynov. –Bakı:Çənlibel NPM, – 2007. – 484 s.

[39] Rüstəmova-Tohidi, S.Ə. 1918. Azərbaycan qırğınları şəkil və sənədlərdə / S. Ə. Rüstəmova-Tohidi. –Bakı: Alf-group, –2013. –168 s.

[40] Zülfüqarlı, M.P. Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi Göyçay döyüşləri (iyun-iyul 1918-ci il)/ M.P.Zülfüqarlı. –Bakı: –2017. – 114 s.

[40] Zülfüqarlı, M.P. Şamaxı soyqırımı (1918-ci il)/ M.P.Zülfüqarlı. – Bakı: Avciya, –2011. –78 s.

[41] Maksvell, N.Ə. Azərbaycan Xalq Cümhuriyyəti: Böyük Britaniyanın arxiv sənədləri/ N.Ə.Maksvell. –Bakı: Çaşıoğlu, –2008. – 576 s.

[42] Abışov,V.Ş. Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920)/ V.Abışov. –Bakı:Turxan, –2014. –120s.

[43] Məmmədova, H.İ. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyətin kəskinləşməsi və erməni separatizminə qarşı mübarizə //Xalq. –2013, 28 may. –№ 115. –s.5.

[44] Səmədzadə, Z.Ə. Dağlıq Qarabağ: naməlum həqiqət/ Z.Səmədzadə. –Bakı: Vətən, – 1995. –83s.

[45] Nərimanoğlu, H.N. Zəngəzur və Qarabağda ermənilərin törətdikləri qətliamlar Osmanlı-Türkiyə mənbələrində/ H.N. Nərimanoğlu. –Bakı: QHT Nəşriyyatı, –2014. –88 s.

[46] Əliyev, N.A. 1917-1920-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənbələrdə / N.A. Əliyev. –Bakı: Nurlan, –2007. –204 s.

S.Yusifzadənin[47], B.Nəcəfovun[48], N.Nəsibzadənin[49], F.Əhmədovanın[50], İ.Niftəliyevin[51], E.Əhmədovun[52], N.Mustafanın[53], N.Yaqublunun[54], K.İsmayılovun[55], M.Süleymanovun[56],

---

[47] Юсифзаде, С.З. Первая Азербайджанская Республика: история, события, факты англо-азербайджанских отношений/ С.Юсифзаде. – Баку: Маариф, –1998. – 208 с.

[48] Nəcəfov, B.İ. XIX-əsrin sonu XX-əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi/ B.Nəcəfov. – Bakı:Çaşıoğlu, – 2007. –s.436.

[49] Nəsibli, N.L. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti/ N.L.Nəsibli. –Bakı: Qanun, –2011. –327 s.

[50] Əhmədova, F.F. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində regionda geosiyasi vəziyyət// Xalq. –2014, 27 may. –s.7.

[51] Niftəliyev İ.V. Qaçılmaz acı bir həqiqət 1917-1920-ci illərdə İrəvan və ətraf bölgələrdə azərbaycanlıların ardıcıl soyqırımları törədilirdi// Azərbaycan.- 2018,31 mart. – № 71. – s.7.

[51] Нифталиев, И.В. Военно – дипломатическая борьба вокруг Карабаха и Зангезура в период АДР (1918-1920 гг.)//– Bakı: Diplomatiy aləmi jurnalı, – 48/2018.– s.233.

[51] Нифталиев, И.В. Геноцид азербайджанцев в Иреванской Губернии (1918-1920)/И.Нифталиев. –Баку: Турхан. –2014. –188с.

[52] Əhmədov, E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011-ci illər)/ E.Əhmədov. – Bakı: Letterpress, – 2012. –912 s.

[53] Mustafa, N.Y. 1918-1920-ci illərdə İrəvan quberniyası ərazisində azərbaycanlıların soyqırımı//Xalq. – 2010, 31 mart. –s.4.

[54] Yaqublu, N.Q. Qafqaz İslam Ordusunun Azərbaycanda izləri/ N.Yaqublu. – Bakı: Kitab klubu, –2015. –151s.

[55] İsmayılov, K.N. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920)/K.İsmayılov. –Bakı: Turxan, –2014. –248 s.

[56] Süleymanov, M.S. Nuru paşa və silahdaşları / M.Süleymanov. –Bakı: – 2014. – 360 s.

V.Qafarovun[57], N.Məmmədzadənin[58], S.Mustafayevanın[59], A.Paşayevin[60], S.Seyidovanın[61], R.İsmayılovun[62] , E.İsmayılovun[63], F.Kazımzadənin[64], M.Sürəyya Bəyin[65], Q.Marxulianın[66], C.Mesxidzenin[67], S.Vimsin[68], R.Ovannisyanın[69], Q.Petrosyanın[70], Y.Barseqovun[71], E.Oqanesyanın[72] və s. müəlliflərin əsərlərində xüsusi ilə geniş tədqiqatlar aparılmışdır.

Həmçinin AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya

---

[57] Qafarov, V. Batum konfransı və müstəqil Azərbaycan Cümhuriyyətinin *yaradılması* //–Bakı: AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası. –2018. –№1. –s.63-83.

[57] Qafarov, V. İrəvanın verilməsi: Osmanlı niyə çibanı kökündən təmizləmədi?!// Respublika. –2016,14 iyul. – s.7

[58] Мамедзаде, Н.Н. Геноцид азербайджанцев в Карабахском регионе Азербайджана (1918-1920)/Н.Мамедзаде. –Баку: Турхан. –2014. –340 с.

[59] Мустафаева, С.О. Изменения границ и территорий на Южном Кавказе (1917-1922):/диссертация на соискание ученой степени доктора философии по истории/ С.О.Мустафаева. –Баку, –2013. –170 с.

[60] Paşayev, A. Ə. Məmməd xan Təkinski kimdir?// Xalq. –2010,18 iyul. – s. 6.

[60] Paşayev, A.Ə. XIX-XX əsrlərdə ermənilərin azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar/ A.Paşayev. –Bakı:Çaşıoğlu, –2011. –s.328.

[61] Seyidova, S.M. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı (1991-2005-ci illər)/ S.M.Seyidova. – Bakı: Elm və təhsil, –2021. –410 s.

[62] İsmayılov, R.Ə. Azərbaycan tarixi/R.Əİsmayılov. – Bakı: Azərnəşr, –1993. –160 s.

[63] Исмаилов, Э.Р. Степан Шаумян: обреченный на забвенье. Портрет «легендарного коммунара» без ретуши/Э.Р.Исмаилов. – Баку: Шерг-Герб,– 2011. – 445 с.

[64] Каземзаде, Ф. Борьба за Закавзазье (1917–1921)/ Ф.Каземзаде. – Стокгольм: CA&CC PRESS, –2010. –328 с.

[65] Münir, S.B. Ermәni Məsələsinin Siyasi Tarixi (1877-1914)/ S.Münir. –Ankara: Yatağan Yayınları, No: 53. –2001. –320 s.

[66] Мархулиа, Г., Армяно-грузинские взаимоотношения *в* 1918-1920 годах/ Г. Мархулиа. –Тбилиси: Тбилисский Государственный Университет имени Иванэ Джавахишвили, –2007. –82с.

[66] Мархулиа, Г., Нуриева, Ш. «Многострадальная Армения»: мифы и реальность/ Г. Мархулиа, Ш.Нуриева. – Баку : [б. и.], – 2011. –344 с. : рис., табл.

İnstitutunun bir sıra elmi əsərlərində tədqiq olunan mövzu öyrənilmiş və təqdiqatların predmeti olmuşdur. İnstitut əməkdaşlarının hazırladığı diqqətə layiq əsərlər sırasında "Azərbaycan Tarixi 7 cilddə"[73], "Azərbaycan Demokratik Respublikası (1918-1920). Xarici siyasət (sənədlər və materiallar)"[74], "Azərbaycan Cümhuriyyəti (1918-1920)"[75] və s. qeyd etmək olar.

Dissertasiyada "Problemin işlənmə dərəcəsi" hissəsində qeyd edilənlərlə yanaşı, bir sıra sənədli mənbələrə də istinad edilmişdir. Həmin mənbələri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Azərbaycan, Rusiya, Gürcüstan və Ermənistan dövlətlərinin rəsmi sənədləri, həmçinin buraya Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi sənədlərini, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, rəsmi internet saytlarını da əlavə etmək olar;

---

[67] Месхидзе, Дж. И. Итальянская интервенция в Грузию в 1919 г.: планы и обстоятельства // –Санкт-Петербург:Вестник СПб ГУ, –2007, Серия 2. История. № 1. –129 с.

[68] Weems, S.A. Armenia: Secrets of a "Christian" Terrorist State / S. A. Weems. –Texas: St. John Press, –2002. –p.76.

[69] Ованнисян, Р. Г. Международные отношения Республики Армения 1918–1920 гг. / Р.Г.Ованнисян.– Ереван: е-Книга, – 2007. –680 с. с. 138.

[70] Петросян, Г.А. Отношения Республики Армения с Россией (1918-1920). / Г.А.Петросян. –Ереван: Изд-во ЕГУ ,–2012.–424 с.

[71] Барсегов, Ю. Г. Геноцид армян. Ответственность Турции и обязательства мирового сообщества [в двух томах]/ ответственный редактор Ю.Г. Барсегов. –Москва: Гардарики, – т. 2. – ч. 1. –2003. – 912 с.

[72] Оганесян, Э. Век борьбы. Очерк 100-летней истории дашнакской партии и национально-освободительной борьбы армянского народа/ Э.Оганесян.– Мюнхен-Москва: Феникс,–т.1.–1991.–385 с.

[73] Azərbaycan tarixi [7 cilddə]/Məsul redaktorlar: M. İsmayılov, N.Maksvell. –Bakı: Elm, –c.5. – 2008. –696 s.

[74] Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы)/ Баку: Азербайджан, –1998. –532 с.

[75]Azərbaycan Cümhuriyyəti (1918-1920) /redaksiya heyyəti F.Maqsudov, İ.Əliyev, N.Ağamalıyeva, Ş.Alışanlı. – Bakı: Elm, –1998. –336 s.

- Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin Sənədləri. İdarənin 894, 895, 970-ci fondlarında mühafizə olunan çox qiymətli sənədlər problemin tarixinə, məsələ ətrafında rəsmi dairələrin tutduğu mövqelərin mahiyyətinə və təkamülünə nəzər salmaq, onları qiymətləndirmək baxımından əvəzolunmaz mənbələrdir;

- Rusiya Federasiyasının Dövlət Arxivinin 130, R-130-cu fondlarında yerləşən arxiv sənədləri də tədqiqat işinin yazılmasında geniş istifadə edilmişdir;

- Dissertasiya işində Azərbaycanda fəaliyyət göstərən telekanallar və internet TV-lər, habelə sosial şəbəkələr və internet saytlarında yerləşdirilən mövzuyla bağlı bəzi materiallara da münasibət bildirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan Respublikası ilə münasibətləri təşkil edir. Tədqiqatın predmetini isə Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan Respublikası ilə münasibətləri, bu münasibətlərə dair aparıcı və region dövlətlərin mövqeyi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya mövzusu kimi seçilmiş tədqiqat işinin məqsədi Azərbaycan Xalq Cümhuriyyətinin 1918-1920-ci illər ərzində Ermənistan Respublikası ilə münasibətlərini tarixi baxımdan araşdırmaq, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi və geosiyasi köklərini, mahiyyətini müəyyənləşdirib təhlil etmək və əldə edilən nəticələri qiymətləndirməkdən ibarətdir.

Müəyyən olunmuş məqsədə çatmaq üçün qarşımıza aşağıdakı **vəzifələr** qoyulmuşdur:

– Azərbaycan Xalq Cümhuriyyəti və Ermənistanın qarşılıqlı münasibətlərini təhlil etmək;

– Böyük Britaniya və ABŞ-ın Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərinə dair mövqeyini və onların Qafqazla bağlı dövlət maraqlarını araşdırmaq;

– Fransa və İtaliyanın Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərinə mövqeyini müəyyənləşdirmək;

– Osmanlı İmperiyasının Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərinə mövqeyini və bunun Qafqaz regionunda mövcud vəziyyətə təsirini nəzərdən keçirmək;

– Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərində Rusiyanın rolunu təhlil etmək;

– İranın Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərinə mövqeyini təhlil etmək.

**Tədqiqat metodları.** Tədqiqat zamanı problemin araşdırılmasında tarixilik prinsipindən, faktoloji şərh, problemə kompleks yanaşma metodlarından istifadə edilmişdir. Eyni zamanda, dövlət başçılarının çıxışları, fərman və sərəncamlarından irəli gələn konseptual yanaşmalar öz əksini tapmışdır. Tədqiqatın metodoloji əsasını isə tarix və siyasi elmlər sahəsində qəbul edilmiş tarixi təsvir, müqayisəli, sistemli siyasi və tarixi təhlil, obyektiv hadisələrin xronoloji təhlili, dövriləşdirmənin sinxron və diaxron təhlili, bütün sosial elmlər üçün ümumi olan analiz və sintez, retrospektiv, kontent-analiz, ümumiləşdirmə, proseslərin təhlili üsulları, eksplikativ üsullar, induksiya və deduksiya metodları təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

– Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin prioriteti qonşu dövlətlərlə mehriban dostluq münasibətləri qurmaq, ikitərəli və çoxtərəfli müstəvidə əməkdaşlıq yaratmaq olmuşdur;

– Ermənistan Azərbaycan Xalq Cümhuriyyətinin tolerant siyasəti fonunda daim Azərbaycan torpaqlarına əsassız iddialarla çıxış edib, xüsusilə də Rusiya, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Fransa kimi aparıcı dövlətlərin güclənən təsirləri bu münasibətlərin kəskinləşməsində böyük rol oynamışdır;

– Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra AXC-Ermənistan münasibətlərinin yeni müstəvidə hüquqi-siyasi qiymətləndirilməsi mümkün olmuşdur;

– Azərbaycanın Qafqaz regionunda yaratmağa can atdığı sülh və stabilliyin bərqərar olmasına Ermənistan daim zidd mövqe nümayiş etdirmişdir;

– Ermənistan Cənubi Qafqaz dövlətləri arasında əsassız ərazi iddiaları ilə çıxış edən yeganə dövlət olmuşdur;

– İlk gündən Azərbaycanın ərazi bütövlüyünün və müstəqilliyinin qorunub saxlanılması, həmçinin erməni və bolşevik təhlükəsinin qarşısının alınmasında yalnız Osmanlı dövləti hərtərəfli dəstək göstərmişdir;

– XX əsrin sonlarında yenidən baş qaldıran, Cənubi Qafqazda qeyri-sabitliyin əsas amili olan Ermənistanın təcavüzkar siyasətinə ikinci Qarabağ müharibəsi ilə son qoyularaq, regionda yeni geosiyasi və geoiqtisadi vəziyyət formalaşmışdır.

**Dissertasiya işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

– Son vaxtlar tədqiqatçılar, alimlər Azərbaycan Xalq Cümhuriyyəti barədə geniş araşdırmalar aparmışlar. Lakin bu günə qədər Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan Respublikası münasibətləri, bu münasibətlərə təsir edən amillər və bu münasibətlərin gərginləşmə səbəbləri ayrıca obyekt olaraq tədqiq edilməmişdir. Dissertasiyanın başlıca elmi yeniliyi 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümuriyyəti-Ermənistan Respublikası münasibətlərinin ilk dəfə kompleks şəkildə ayrıca tədqiqat obyekti kimi seçilməsidir;

– Tədqiqat işində 1918-1920-ci illərdə erməni millətçilərinin azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinin ayrı-ayrı mərhələləri yeni faktlar əsasında araşdırılmışdır;

– Dissertasiya işində Azərbaycan, ingilis, rus, gürcü, türk alimlərinin əsərləri ilə yanaşı erməni mənbələri də xronoloji ardıcılıqla çoxlu faktların toplanması və sistemləşdirilməsi ilə hərtərəfli təhlil edilmiş, həmin mənbələrdə əks olunmuş ermənilərin özlərini tənqid və ifşa edən məlumatlara geniş yer verilmişdir;

– Ermənilərin XX əsrin əvvələrindəki qanlı əməllərinin ifşa olunması məqsədi ilə başqa müəlliflərin araşdırmalarından sitatlar gətirməklə yanaşı Rusiya Federasiyası Dövlət Arxivində saxlanılan ilkin mənbələrdən çıxarış edilib, tərcümə olunaraq şərh verilməklə istinad kimi istifadə edilmişdir;

– Birinci Dünya müharibəsinin qalibləri ABŞ, Böyük Britaniya, Fransa və İtaliyanın dünyanın bölüşdürülməsi kontekstində

Cənubi Qafqazda maraqları nəzərə alınaraq, 1918-1920-ci illərdə Azərbaycan-Ermənistan münasibətlərinə mövqeyi sistemli və geniş şəkildə təhlil edilmişdir;

– Regional güclər olan Osmanlı İmperiyası, Rusiya və İranın 1918-1920-ci illərdə Azərbaycan-Ermənistan münasibətlərinə mövqeyi sistemli və geniş şəkildə təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəticələri aşağıda qeyd olunan istiqamətlərdə nəzərə alına bilər:

– Azərbaycana qarşı erməni təcavüzünün ifşası, bu təcavüzün aradan qaldırılması ilə bağlı Azərbaycan dövlətinin xarici siyasətinin istiqamətlərinin öyrənilməsi, milli təhlükəsizliyin təmin edilməsi sahəsində mövcud təcrübənin araşdırılmasında;

– Ali məktəblərdə tarix, siyasi tarix, politologiya, beynəlxalq münasibətlər, beynəlxalq münasibətlər tarixi kurslarının tədrisində, mühazirə mətnlərinin, dərs vəsaitlərinin hazırlanmasında, "Ermənistan-Azərbaycan münaqişəsi" probleminin kökləri ilə bağlı elmi-tədqiqat işlərində, diplomatik görüşlərdə, 20 Yanvar faciəsi, Xocalı soyqırımı və 31 Mart azərbaycanlıların soyqırımı ilə əlaqədar təşkil edilən mərasimlərdə, konfrans və seminarlarda, kütləvi informasiya vasitələri üçün materialların hazırlanmasında;

– Azərbaycanın xarici siyasət qurumlarının praktiki fəaliyyətində;

– Dissertasiya işinin nəticələri və materiallar gələcəkdə bu istiqamətdə aparılan digər tədqiqatlar üçün mənbə rolunu oynaya bilər.

**Aprobasiyası və tətbiqi**. Tədqiqat işi Azərbaycan Turizm və Menecment Universitetinin Doktorantura Attestasiya Komissiyasının 22 dekabr 2021-ci il tarixli iclasında müzakirə olunaraq müdafiəyə tövsiyə edilmişdir. "Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan Respublikası ilə münasibətləri (1918-1920-ci illər)" adlı dissertasiya işinin əsas nəticələri müxtəlif yerli və xarici nəşrlərdə çap olunmuş çoxsaylı elmi məqalələrdə ictimaiyyətə çatdırılmışdır. Tədqiqat işinin əsas yekunları ilə əlaqədar respublika və beynəlxalq səviyyəli konfranslarda elmi məqalələrlə məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Turizm və Menecment Universitetinin "İctimai fənlər" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.**

Dissertasiya işi girişdən (26474 işarə), 3 fəsildən (I fəsil – 75081 işarə, II fəsil –78630, III fəsil –57431 işarə), nəticə (21058 işarə), 239 sayda istifadə olunmuş ədəbiyyat siyahısı, ixtisarların və şərti işarələrin siyahısından ibarət olmaqla 156 səhifə həcmindədir. Dissertasiyanın ümumi həcmi istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 258674 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə dissertasiya işinin aktuallığı və işlənmə dərəcəsi, obyekti, predmeti, işin məqsəd və vəzifləri, tədqiqat metodları, müdafiəyə çıxan əsas müddəalar, dissertasiya işinin elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi öz əksini tapmışdır.

Dissertasiya işinin "**Azərbaycan Xalq Cümhuriyyəti - Ermənistan münasibətlərinin əsas istiqamətləri**" adlanan birinci fəslinin **"Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Ermənistana münasibət"** başlıqlı birinci paraqrafında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xarici siyasət sahəsində Ermənistan Respublikası ilə münasibətləri tədqiq edilmişdir. Qeyd edilmişdir ki, AXC-nin Ermənistanla münasibətləri Azərbaycan tarixinin ən gərgin münasibətləri olmuşdur. Bununla əlaqədar Ə.Topçubaşov Osmanlı İmperiyasının xarici işlər naziri Nəsimi bəylə 1918-ci il oktyabrın 2-də baş tutmuş danışığında qeyd edirdi: "*Biz qonşularımızla mehriban olmağa çalışırıq, ancaq qorxuruq ki, ermənilərlə bu baş tutmayacaq. Çünki həddən artıq iştahı olan və öz niyyətlərini pərdələmək üçün bizim maraqlarımıza xələl gə-*

*tirən ermənilər bizi dövlət müstəqilliyinə layiq olmayan, digər millətlərlə ədavəti olan bir millət kimi ifşa edirlər. Ona görə də bizim Avropanın mühüm mərkəzlərində nümayəndələrimiz olmalıdır”*[76]. İki dövlət arasında rəsmi diplomatik münasibətlərin yaradılmasına qədər Ermənistan Respublikası ilə yazışmalar Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstandakı nümayəndəliyi vasitəsilə aparılırdı. Baxmayaraq ki, Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-də yaradılmışdır, Ermənistanla diplomatik münasibətlərin yaranması yalnız 1919-cu ilin əvvəllərində mümkün olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan Respublikası ilə münasibətlərinin tənzimlənməsində Azərbaycanın İrəvandakı nümayəndəliyi mühüm rol oynamışdır. Azərbaycanın İrəvandakı nümayəndəliyi AXC-nin Ermənistanla münasibətlərinin tənzimlənməsində, Ermənistanda yaşayan azərbaycanlıların haqlarının müdafiə olunmasında, erməni millətçilərinin bölgədəki etnik təmizləmə-soyqırımı siyasətinin qismən də olsa qarşısının alınmasında səmərəli fəaliyyət göstərmişdir. Birinci fəslin **“Ermənistanın Azərbaycan Xalq Cümhuriyyətinə ərazi iddiaları”** adlanan ikinci paraqrafında erməni millətçilərin XIX əsrdən başlayaraq bu günə kimi "Böyük Ermənistan" yaratmaq ideyasını həyata keçirmək üçün qonşu dövlətlərə, xüsusilə Azərbaycana qarşı əsassız irəli sürdüyü ərazi iddiaları faktlarla göstərilib. 1918-1920-ci illərdə erməni millətçi təşkilatları Azərbaycanın əzəli torpaqları olan Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinə yiyələnmək üçün cəhdlər göstərirdilər. Onlar hər vasitə ilə Qarabağı Azərbaycandan qoparmağa, azərbaycanlıları bu ərazilərdən sıxışdırıb çıxarmağa çalışırdılar. Bu paraqrafda həmçinin qeyd edilir ki, daşnak hakimiyyəti türk qoşunlarının Azərbaycanı tərk etməsindən istifadə edərək Naxçıvan, Şərur-Dərələyəz, Eçmiədzin və Qars bölgələrini müsəlman əhalisindən təmizləməyi planlaşdıraraq bu yerlərdə öz haki-

---

[76] Запись беседы А.М.б.Топчибашева с министром иностранных дел Турции А.Насими беем ( Стамбул: 2 октября 1918 года)//Azərbaycan Respublikası Dövlət Arxivi, fond № 894, siyahı №10, iş №150, vərəq -3

miyyətini möhkəmləndirmək istəyirdi. 1918-1920-ci illərdə Ermənistanda azərbaycanlılara qarşı sözün həqiqi mənasında soyqırımı törədildiyi qənaətinə gəlmək üçün arxivlərdə və həmin dövrün mətbuatında kifayət qədər faktlar mövcuddur. 1919-cu il noyabrın 23-də Azərbaycan və Ermənistan arasında sülh sazişi imzalandı[77]. Sazişə əsasən Ermənistan tərəfi öz qoşunlarını Zəngəzurdan çıxarmağı öhdəsinə götürdü, lakin verdiyi sözə tam əks olaraq, 1920-ci il 19-25 yanvar tarixlərdə Zəngəzur qəzasının 51 müsəlman kəndini viran qoymuş, yerli əhaliyə qarşı qətliamlar törətmişdir. 1920-ci ilin mart ayında isə Ermənistan emissarları bolşeviklərin Azərbaycanın şimal sərhədinə daxil olmasından istifadə edib gizlicə Qarabağa gələrək orda təxribatlar və qırğınlar törətdilər[78].

Dissertasiya işinin ikinci fəsli **"Aparıcı Qərb dövlətlərinin Azərbaycan Xalq Cümhuriyyəti- Ermənistan münasibətlərinə yanaşması"** adlanır. Həmin fəslin **"Böyük Britaniya və ABŞ-ın Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərinə dair mövqeyi və onların Qafqazda dövlət maraqları"** adlanan birinci paraqrafında Çar Rusiyasının süqutundan sonra Cənubi Qafqazda etnik baxımdan yaranmış ziddiyyətlərin aparıcı dövlətlər üçün regionu əlçatan etdiyi vurğulanır. Eyni paraqrafda ABŞ və Böyük Britaniya ikili oyun oynayaraq Qafqazın yeni yaranmış dövlətlərinə münasibətdə sadəcə öz iqtisadi və siyasi maraqlarını təmin etmək üçün çalışdığı, ermənilərin isə mümkün qədər çox ərazi ələ keçirməklə başqa dövlətlərin ərazisini ilhaq etməkdə maraqlı olduğu göstərilir. Həmçinin "parçala və hökm sür" prinsipiylə hərəkət edən güclü dövlətlərin millətlər arasında öz maraqları çərçivəsində idarə etmək üçün ziddiyyətlər yaratdıqları qeyd olunur. İkinci fəslin **"Fransa və İtaliyanın Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərinə yanaşması"** adlı ikinci paraq-

---

[77] Musa, İ.M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917 - aprel 1920-ci illər)/ İ.Musa. –Bakı: Bakı Universiteti, –2011. –s.81

[78] Arzumanlı, V.M, Mustafa, N.Y. Tarixin qara səhifələri.Deportasiya. Soyqırım. Qaçqınlıq/V.Arzumanlı, N.Mustafa. – Bakı: Qartal, –1998. – s.78

rafında 1918-1920-ci illərdə Azərbaycan-Ermənistan münasibətlərinə dair Fransa və İtaliyanın tutduğu mövqe təhlil olunur. Qeyd edilir ki, Fransa və İtaliya Qafqazda resursların istismarına can atır, Azərbaycan-Ermənistan münasibətlərini öz mənfəətləri üçün istifadə edirdi. Eyni zamanda həm Fransa, həm də İtaliya xristian mövqeyindən çıxış edərək azərbaycanlıları erməni-daşnak terrorundan qorumaq üçün heç bir addım atmır, erməni-daşnakların hərəkətlərinə siyasi və hərbi neytrallıq adı altında göz yumurdu.

Dissertasiyanın üçüncü fəsli **"Osmanlı İmperiyası, Rusiya və İranın Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərinə mövqeyi"** adlanır. "**Osmanlı İmperiyasının Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərində tutduğu mövqe və bunun Qafqaz regionunda mövcud vəziyyətə təsiri"** adlanan birinci paraqrafda Osmanlı İmperiyasının gənc Azərbaycan dövlətinin inkişafında və digər dövlətlərlə mehriban qonuşuluq münasibətlərinin yaratmasında maraqlı olduğu qeyd edilir. Paraqrafda Cənubi Qafqazda sülh və əmin-amanlığın bərqərar olması Osmanlı İmperiyasının Şərq sərhədlərində sakitlik demək olduğu və sərhədlərinin ən azından birində stabilliyi təmin etmək hər tərəfdən mütəmadi hücumlara məruz qalan Osmanlılar üçün həyati əhəmiyyət kəsb etdiyi açıqlanır. Həmin paraqrafda regionun digər güclü aktorlarından fərqli olaraq Osmanlı dövlətinin erməniləri öz planlarında istifadə etmədiyi, açıq şəkildə haqq tərəf olan Azərbaycanı dəstəklədiyi vurğulanır. Üçüncü fəslin **"Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərində Rusiyanın rolu"** adlanan ikinci paraqrafında ermənilərin sayının Cənubi Qafqazda, xüsusən də tarixi Azərbaycan ərazilərində çoxalmasında Çar Rusiyasının böyük rolunun olduğu qeyd olunur. Xüsusilə vurğulanır ki, Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsinə mövqeyi maraqlarına görə dəyişirdi, lakin çox zaman ermənilərin iddiaları qarşılanır, Rusiyanın öz siyasi və iqtisadi təsirini artırmaq üçün "erməni məsələsi"ndən məharətlə yararlanırdı[79].

---

[79] Ганбарова, С.И. Роль России в обострении отношений между Азербайджанской Демократической Республикой и Армянской

**“İranın Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətlərinə mövqeyi”** adlanan üçüncü paraqrafda İranın istər Azərbaycan, istərsə də Ermənistan ərazisində türk-müsəlman əhalisinə qarşı ermənilər tərəfindən törədilən qanlı aksiyalardan və soyqırımı aktlarından narahat olmaması, hətta ermənilərin tərəfini seçməsi qeyd olunur.

Dissertasiyanın **Nəticə** hissəsində aparılmış tədqiqata yekun vurulmuş, başlıca qənaətlər ümumiləşdirilmiş, mövzu ilə bağlı əhəmiyyətli olan müəyyən təkliflər verilmişdir.

Mövzu araşdırılan zaman əldə olunan **nəticələr** aşağıdakı kimi sadalanmışdır:

- AXC regionda baş verən çox gərgin siyasi proseslər fonunda yaranmış, 23 aylıq fəaliyyəti də bu gərginliklə müşahidə olunmuşdur. Cənubi Qafqaz regionu, xüsusilə Qafqazın Şərq və Qərb qapısı, zəngin yeraltı, yerüstü sərvətlərinə malik ölkəsi olan Azərbaycan daim xarici təzyiqlərə, hədələrə məruz qalmışdır. Bütün bunlara baxmayaraq, AXC qısa fəaliyyət dövründə milli müstəqillik şüurunu millətə aşılaya bilmiş, demokratik dövlət quruculuğu istiqamətində bir sıra nailiyyətlərə imza atmışdır;
- AXC mehriban qonşuluq prinsipləri üzərində qurulan xarici siyasət strategiyasını, təəssüf ki, qonşularıyla reallaşdıra bilməmişdir. Bir tərəfdən AXC-nin yaranmasını öz müstəqilliyinə təhdid kimi görən İran, bir tərəfdən AXC-nin müstəqilliyi ilə barışa bilməyən Rusiya, digər tərəfdən də Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən Ermənistanla bu mehriban qonşuluq prinsipini reallaşdırmaq bir qədər absurd idi. Yenə də AXC hökuməti qonşularına dost əli uzatmış, mövcud problemlərin dinc formada, qarşılıqlı anlaşma ilə həlli istiqamətində cəhdlər etmişdir. "İstiqlal Bəyannaməsi"ndə[80] də bütün dövlətlərlə, o cümlədən, qonşu xalqlarla

Республикой в 1918-1920-х годах//–Lənkəran: Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri, Humanitar elmlər bölməsi, –2017. №2, – s.52

[80] Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Парламент (Стенографические отчеты)/ Баку: Азербайджан, –1998. –992 с.

sülh və mehriban şəraitdə yaşamaq, bir-birinin müstəqilliyinə və dövlət suverenliyinə hörmətlə yanaşmaq prinsipləri öz əksini tapmışdır. AXC heç bir qonşu dövlətin ərazisinə iddia etməmiş, heç bir qonşu dövlətin müstəqilliyini özünə təhlükə kimi görməmişdir. Əksinə, AXC hökuməti bütövlükdə regionda demokratik dövlət quruculuğunun tərəfdarı olmuş, qonşu dövlətlərin də demokratik prinsiplər əsasında idarə olunması arzusunu dilə gətirmişdir;

- AXC-nin Ermənistanla münasibətləri ilk başdan ancaq birtərəfli – Azərbaycan tərəfdən irəli sürülən təşəbbüs nəticəsində mümkün olmuşdur. Hələ AXC yaranmamışdan əvvəl yerli azərbaycanlılar indiki Ermənistan ərazisində erməni silahlı dəstələri tərəfindən kütləvi qırğınlara məruz qalmışdır. AXC-nin yaranmasından yarım ildən çox vaxt keçməsinə baxmayaraq Ermənistanla birbaşa diplomatik münasibətlər qurmaq mümkün olmamışdır. Hətta Azərbaycan-Ermənistan sərhədlərini elan etmək üçün AXC tərəfindən Ermənistana təklif göndərilsə də ermənilər hərbi təcavüzlərini dayandırmamış Naxçıvana, Zəngəzura Dağlıq Qarabağa ərazi iddiası irəli sürməyə başlamışdılar. İrəvan şəhərini ermənilərə güzəşt etməyimiz də onların əsassız ərazi iddialarına son qoymadı. Paytaxtı qədim Azərbaycan şəhəri İrəvan olan Ermənistan dövləti qurulduqdan sonra erməni hakim dairələri daha da azğınlaşdılar və iddialarını artırmağa başladılar. İllərdir "Böyük Ermənistan" kimi absurd bir ideologiya ilə özlərini aldadan erməni millətçilərinin əlinə fürsət düşdü. Ermənistan hökuməti bir tərəfdən azərbaycanlılara qarşı soyqırım törədir, kəndlərimizi dağıdır, insanları məscidlərə dolduraraq yandırır, digər tərəfdən də AXC ilə diplomatik əlaqələrin qurulmasının vacibliyindən danışır, dostluq əlaqələrindən dəm vurur, Azərbaycanın zəngin neft potensialından faydalanmağa çalışırdı;

- 23 aylıq qısa fəaliyyət dövründə AXC hökuməti Ermənistanın əsassız ərazi iddialarına qarşı mübarizə aparmış, ermənilərin yerli azərbaycanlılara qarşı törətdiyi soyqırım siyasətini beynəlxalq aləmə bəyan etmiş, erməni terrorizminin qarşısını almaq istiqamətində əməli fəaliyyət sərgiləyə bilmişdir. AXC Qarabağın dağlıq hissəsində, Zəngəzurda və ermənilərin iddia etdiyi digər

ərazilərdə suveren hüquqlarını bərpa etməyə nail olmuşdur;

- Daim vətən axtarışında olan ermənilər öz iddialarını reallaşdırmaq üçün aparıcı güclərin məqsədlərinə yardımçı olublar. "Daşnaksütun" partiyasının nizamnaməsi böyük dövlətlərin müstəmləkəçilik siyasətinin təzahürü idi. 1918-1920-ci illərdə imperialist qərb dövlətləri və aparıcı region dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinə əsasən öz maraqlarından yanaşırdı. Onların bu münaqişəyə münasibətini formalaşdıran əsas amillərdən biri regionda geosiyasi və geoiqitisadi maraqları idi;

- "Parçala və hökm sür" prinsipiylə hərəkət edən güclü dövlətlər millətləri rahat idarə edə bilmək, öz təsir dairələrində saxlamaq üçün ziddiyyətlər yaradırdılar. Cənubi Qafqaz regionu da hər zaman böyük dövlətlərin nifaq toxumu səpdiyi mərkəzi bölgələrdən biri olmuşdur;

- Azərbaycanın bu çətin və keşməkeşli dövründə yalnız Osmanlı ilk gündən onun ərazi bütövlüyünün və müstəqilliyinin qorunub saxlanılması üçün hərtərəfli dəstək göstərirdi. Osmanlının siyasi və hərbi yardımı nəticəsində separatçı ermənilərin və işğalçı bolşeviklərin ərazi bütövlüyümüzə olan təhlükəli cəhdlərinin qarşısı alınmışdır;

- Ermənistan və Azərbaycan Xalq Cümhuriyyəti arasında ermənilərin şovinist siyasəti ucbatından baş verən münaqişələr regionda təhlükəsizliyin qorunmasının və gələcək inkişafının ciddi şəkildə qarşısını alırdı[81]. Regionda təhlükəsizlik və sabitliyin təmin edilməməsinin əsas səbəblərdən biri də böyük dövlətlərin regiona özlərinin iqtisadi, hərbi və siyasi maraqlarından yanaşması idi. Belə ki, dünyanın aparıcı dövlətləri olan Rusiya, ABŞ, İngiltərə, Fran-

---

[81] Ганбарова, С.И. Агрессорская политика Армянской Республики как фактор нестабильности на Южном Кавказе (1918-1920-ые годы)// – Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda beynəlxalq elmi konfransın materialları, –Bakı: 23-24 may, –2018, c.512-516

sa və İtaliyanın məqsədi regionda öz maraqlarına uyğun təhlükəsizlik sistemini yaratmaq idi. Beləliklə, Rusiyanın ermənilərin Azərbaycanın dinc əhalisini qırmasına yardım göstərməsi, İngiltərə, ABŞ və başqa aparıcı dövlətlərin "ikili standartlar"dan çıxış etmələri, habelə qonşu İranın da türk-müsəlman soyqırımına şərait yaratması təkzibi mümkünsüz olan tarixi həqiqətdir;

- Cənubi Qafqazın əhəmiyyətli geostrateji mövqeyi tarixən dünya dövlətlərinin regiona olan marağını artırıb. Böyük güclərin region ətrafında toqquşan siyasi və iqtisadi maraqları regiondaxili proseslərin həllinə də əngəllər yaradırdı. Çar Rusiyasının süqutu ilə regionun yeni inkişaf mərhələsinə qədəm qoyması Qərbin regionda baş verən proseslərə qoşulması imkanını artırdı, fərqli aktorların maraqlarının regionda təmsil olunmasına fürsət yaratdı. Belə bir şəraitdə Cənubi Qafqazın döyünən ürəyi hesab olunan Azərbaycanın beynəlxalq və regional mənzərəsi olduqca mürəkkəb idi. Böyük güclərin Bakı nefti uğrunda mübarizəsi vəziyyəti daha da gərginləşdirirdi;

- Azərbaycana qarşı erməni təcavüzü 1918-1920-ci illərdə minlərlə insanın həyatına son qoydu, yüz minlərlə insanları qaçqına çevirərək yurd-yuvalarından didərgin saldı. Münaqişə yüzlərlə yaşayış məntəqəsinin dağıdılması və iqtisadi itkilərə yol açdı;

- Son iki əsrdə tarixi şərait səbəbindən cərəyan etmiş hadisələrə, xalqımızın başına gələn saysız-hesabsız faciələrə obyektiv qiymət vermək mümkün olmamışdır. Ancaq dövlət müstəqilliyinin bərpasından sonra ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı cinayətləri hüquqi-siyasi baxımdan qiymətləndirildi. Ümummili Lider H.Əliyevin 1993-cü ildə Azərbaycan Respublikasının siyasi rəhbərliyinə dönərək milli dövlətçiliyi bərpa etməsi, həm elmi, həm də ideoloji sahədə təşəbbüsü ələ alması ilə nəticələndi;

- Mövzunu araşdırarkən müasir Azərbaycan-Ermənistan münasibətlərinin təhlili baxımından da nəticələrə gəlmək mümkündür. Çünki AXC-nin siyasi varisi olan müasir Azərbaycan dövlətinin müstəqilliyinin ilk illərində də yaranmış ağır tarixi şəraitdə Ermənistan bitmək bilməyən ərazi iddialarını yenə irəli

sürmüş və mövcud tarixi şəraitdən istifadə edərək bunu reallaşdırmaq üçün fürsət qazanmışdır. Azərbaycan növbəti dəfə erməni terrorizminin qurbanına çevrilmiş və mövcud gərgin ictimai-siyasi vəziyyətdə erməni işğalı ilə üz-üzə qalmışdır. Böyük şəxsiyyət H.Əliyevin Azərbaycan xalqının təkidi ilə yenidən hakimiyyətə gəlməsiylə işğal dayandırılmış, bir sıra uğurlu hərbi əməliyyatlar həyata keçirilmişdir. Lakin nəzərə almaq lazımdır ki, yenicə müstəqillik əldə edən dövlətimiz daxili çəkişmələr, erməni təcavüzü səbəbindən iqtisadi potensialını gücləndirə bilməmişdir. Belə bir şəraitdə ən düzgün yol məhz atəşkəsin imzalanması olmuşdur. Atəşkəsin imzalanmasından keçən müddət ərzində Ümummilli Lider H. Əliyevin əsasını qoyduğu uğurlu starteji konsepsiya nəticəsində iqtisadiyyatımız dirçəlməyə başladı. Ulu Öndər məktəbinin layiqli davamçısı İ.Əliyevin praqmatik siyasəti ilə iqtisadi nailiyyətlərimiz daha da artdı, bu isə ordu quruculuğuna, hərbi islahatlara imkan yaratdı. Təsadüfi deyildir ki, 44 günlük Vətən müharibəsində dünya Azərbaycanın illərdir xüsusi diqqət ayırdığı hərbi siyasətinin nə qədər məzmunlu və uzaqgörən olduğunun şahidi oldu. Dövlətimizin uğurlu əks-hücum əməliyyatı dünya hərb elminə yenilik gətirdi. İndi isə əsas məsələ regionda sabitliyə nail olmaq, gələcək perspektivlərə istiqamətlənməkdir. Ermənistan keçmiş səhvlərindən dərs almalı, yenə də humanist siyasətini nümayiş etdirərək sülhə hazır olduğunu bəyan edən Azərbaycan vasitəsilə özünü regional blokadadan çıxmalıdır.

2020-ci ildə Azərbaycan torpaqlarında erməni təcavüzünə son qoyuldu. 44 günlük müharibə zamanı Azərbaycan döyüş meydanında, diplomatik arenada və informasiya sahəsində mübarizə apardı. Bu qalibiyyətlə Azərbaycan Ermənistana və onun havadarlarına çox şeyi sübut etdi. Müharibə ərzində Azərbaycan xalqı öz lideri, Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq şəklində birləşərək bütün dünyaya gücünü, cəsarətini və mübarizə bacarığını nümayiş etdirdi. Eyni zamanda 44 gün ərzində Ermənistan və onun havadarları, həmçinin 30 ilə yaxın bir müddət ərzində münaqişənin həlli istiqamətində heç bir fəaliyyət sərgiləməyən ATƏT-in Minsk qrupuna daxil olan dövlətlər və həmsədrlər bir şok

yaşadılar. Təsadüfi deyil ki, həm Prezident İlham Əliyev, həm də müharibənin ilk günlərindən siyasi dəstəyini Azərbaycandan əsirgəməyən qardaş Türkiyə rəhbərliyi, həmçinin Pakistan, Ukrayna, İsrail kimi bir sıra dövlətlərin rəhbərlikləri imzalanmış üç tərəfli sazişi Azərbaycanın qeyd-şərtsiz qələbəsinin və Ermənistanın təslim olmasının dəlili kimi qiymətləndirdi.

Mövzunu araşdırdığımız zaman istifadə etdiyimiz etibarlı və dəyərli mənbələrdən, ümumilikdə isə işin gedişatında irəli sürdüyümüz mülahizələrdən irəli gələrək Azərbaycan – Ermənistan münasibətlərinin ermənilərin yüz ildən artıq davam edən ərazi iddiaları fonunda qiymətləndirilməsi və gələcəkdə üzləşə biləcəyimiz bənzər problemlərin həllində tətbiq edilməsi üçün aşağıdakı **təklifər** verilə bilər:

- Ermənilərin Cənubi Qafqaza köçürülməsini Rusiya tərəfindən paralel olaraq Türkistana, Krıma, Şimali Qafqaza və Rus dövlətinin sərhədi boyu aparılmış bənzər kampaniyaların zərərçəkmiş ölkələrin elm adamları daxil olmaqla beynəlxalq komanda tərəfindən tutarlı sübutlarla araşdırılması və erməni yalanlarının qlobal səviyyədə birgə ifşası;
- Azərbaycan, Türkiyə və digər yaxın Şərq ölkələrinin ermənilərin əsassız ərazi, tarixi, mədəni, topoqrafik iddiaları ilə qarşılaşdığını nəzərə alaraq erməni yalanlarının beynəlxalq səviyyədə tutarlı dəlillərlə ifşası üçün zərərçəkmiş ölkələrin elm adamları daxil olmaqla birgə araşdırmaların aparılması;
- Ermənilərin, xüsusən daşnak silahlılarının Anadolu, Yaxın Şərq, Türkistan və Qafqazda törətdiyi qırğınların zərərçəkmiş ölkələrin elm adamlarının daxil olduğu beynəlxalq komanda tərəfindən kompleks araşdırılması və ermənilər tərəfindən törədilmiş terror əməllərinin qlobal səviyyədə birgə ifşa edilməsi;
- Erməni qətliamlarına sülh və insanlıq əleyhinə cinayətlər qismində hüquqi qiymətin verilməsi üçün həmin qətliamlara dair arxeoloji faktları məhkəmə-tibbi ekspertlərin iştirakı ilə toplayaraq beynəlxalq tribunala müraciət edilməsi;

- Daşnak ideyalarına xidmət etmədikləri üçün “lazımsız" hesab edilmiş erməni millətinin nümayəndələrinə qarşı (bariz və yaxın nümunələrindən biri 1988-ci ilin Sumqayıt hadisələri) törədilmiş cinayətlərin beynəlxalq komanda cəlb edilməklə ciddi araşdırılması və nəticələrinin beynəlxalq aləmdə təbliğ edilməsi;

- Müxtəlif ölkələrin arxivlərində saxlanılan ermənilər və daşnak fəaliyyətləri ilə bağlı materiallarının Azərbaycan dilinə rəsmi tərcümə edilməklə müqayisəli öyrənilməsi və nəticələrinin Azərbaycanlı elm adamları üçün əlçatan edilməsi;

- Ermənilərin özlərinin Cümhuriyyət və müstəqil Azərbaycana qarşı törətdikləri cinayətlər barəsində ifşaedici etiraflarının daha geniş araşdırılması və beynəlxalq ictimaiyyətə çatdırılması;

- Ermənilərə Cümhuriyyət və Azərbaycan SSR-i tərəfindən edilmiş geniş güzəştlərin müəyyən edilməsi, qiymətləndirilməsi və Ermənistana qarşı beynəlxalq məhkəmələrdə istifadə edilməsi;

- Təkliflərdə qeyd olunan araşdırma nəticələrinə əsasən Azərbaycan və müttəfiq dövlətlərin diplomatları üçün erməni yalanalarına qarşı hərəkət təlimatının hazırlanması;

- Bənzər araşdırma mexanizminin Azərbaycana qarşı iddia və tələbləri olan, suverenliyimizi şübhə altına alan qüvvələrə qarşı tətbiq olunması.

## Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1. Azərbaycan Xalq Cümhuriyyəti-Ermənistan münasibətləri Çar Rusiyasının köçürmə siyasətinin nəticəsi kimi // – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, –2017. №1, – s.237-245.

2. Роль России в обострении отношений между Азербайджанской Демократической Республикой и Армянской Республикой в 1918-1920-х годах// – Lənkəran: Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri, Humanitar elmlər bölməsi, –2017. № 2, – s.48-53.

3. Армянский сепаратизм в период Азербайджанской Демократической Республики// – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, –2017. № 2, – s.264-269.

4. Агрессорская политика Армянской Республики против Азербайджанской Демократической Республики в 1918-1920-х годах// – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, –2017. №4, – s.176-181.

5. Азербайджано-армянские отношения в 1918-1920-х годах// – Киев: Гилея, Науковий висник: –2017. (122), – с.137-140.

6. Азербайджанский парламент в 1918-1920-ые годы// Материалы международной научной конференции «Таврические чтения 2017. Актуальные проблемы парламентаризма: история и современность», – Санкт-Петербург: –7-8 декабря, –2017, – с.202-206.

7. Qafqaz İslam Ordusu və Azərbaycanın erməni-bolşevik işğalından təmizlənməsi (1918-1920-ci illər) // Azərbaycan–Türkiyə münasibətləri II beynəlxalq elmi konfransının materialları, – Kastamonu: –12-14 oktyabr, –2017, – s. 100-103.

8. Агрессорская политика республики Армении как фактор нестабильности на Южном Кавказе (1918-1920-е годы) //Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda beynəlxalq elmi konfransın materialları, –Bakı: –22-24 may, –2018, – s.512-517.

9. Армяно-Азербайджанский конфликт в период Азербайджан-ской Демократической Республики (1918-1920 годы)// Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk demokratik dövlətidir" mövzusunda elmi konfransın materialları, – Gəncə: –23-24 may, –2018, –s.173-177.

10. Ermənistan ərazisində türk-müsəlman əhalisinin soyqırımı (1918-1920-ci illər// "İdarəetmədə multikultural dəyərlər" mövzusunda respublika konfransının materialları, – Bakı: – 25 may, –2018, – s. 35-40.

11. Azərbaycan Xalq Cümhuriyyəti dövründə multikultural

ənənələr və erməni separatizmi// – Bakı: Dövlət idarəçiliyi. Nəzəriyyə və təcrübə, – 2018. №1 (61), – s.267-276.

12. Проблема Нагорного Карабаха в период Азербайджанской Демократической Республики (1918-1920-е годы) // – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, –2018. №1, –s.215-222.

13. Политико-правовая оценка оккупационной политики армян, проводимой в 1918-1920-х годах//– Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, – 2019. №3, –s.136-144.

14. Политика уничтожения Арменией материально-культурного наследия Азербайджана в XX веке//6-cı Uluslararası türk dünyası turizm sempozyumu bildiri kitabı, –Dənizli: – 1 oktyabr, –2020, –s.691-701.

15. Дипломатическое представительство Азербайджанской Демократической Республики в Армении в 1918-1920-е годы//– Дніпро: Науково-теоретичний альманах «Грані», – 2021. ТОМ 24 № 4,– с. 66-74.

16. Territorial claims of Armenia to the Azerbaijan Democratic Republic in 1918-1920// – Суми: Сумський Історико-Архівний журнал, –2021. № XXXVI, –p.46-52.

17. Azərbaycan Xalq Cümhurıyyətının qonşu dövlətlərlə münasibətləri (1918-1920-ci illər)// – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları,–2023. № 3-4, – s.32-40.

Dissertasiyanın müdafiəsi "26 dekabr 2024-cü il" il tarixində saat 13⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1073, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "20 noyabr 2024-cü" il tarixində zəruri ünvanlara göndərilmişdir.

---

Çapa imzalanıb: 18.11.2024
Kağızın formatı: A5
Həcm: 47779
Tiraj: 100